RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2016.04.02.00083




# AZƏR DADAŞOV'UN FORTEPIANO SONATIN ALANINDA MİLLİ ÜSLUB XÜSUSİYYƏTLƏRİ VƏ MÜASIR YAZI TEXNİKASI

**Ülviyyə Kazımova**[1]

**ÖZET**

Təqdim olunan məqalədə Azər Dadaşovun fortepiano sonatinaları tədqiq edilir. Bu sonatinalar forma, lad-intonasiya,ifaçılıq xüsusiyyətləri vəmürəkkəbliyi baxımından təhlil edilir. Tonal genişlənmələrinin,poliladlılıq faktura prinsipinin geniş yer aldığı göstərilir. Veberin variasiya prinsipi ilə müqayisə aparılır(3cü hissədə). Seriallaşmanın dodekafonik səs sırasına nəzər salınır.

**Anahtar Kelimeler**: sonatina, bəstəkar, fortepiano, ifaçı, təhlil

# ОСОБЕННОСТИ НАЦИОНАЛЬНОГО СТИЛЯ И СОВРЕМЕННАЯ ТЕХНИКА ПИСЬМА В СОНАТИНАХ АЗЕР ДАДАШЕВА

**Ульвия Казымова**

**Резюме**

В этой статье исследуется фортепианные сонатины композитора Азера Дадашева. Дается анализ формы, ладоинтонационных особенностей и исполнительских трудностей данной сонатины. Широко используется тональное расширение ,поледадный фактурный принцип. Сравнивается свариационным принципам Вебера. Просматривается звукоряд серийной додекафонии.

**Ключевые слова**: сонатина, композитор, фортепиано, исполнитель, анализ.

[1] Ülviyyə Kazımova İlham qızı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı.

# FEATURES OF NATIONAL STYLE AND MODERN TECHNOLOGY LETTERS SONATINA AZER DADASHOV

**Ulviyya Kazimova**

**ABSTRACT**
This article explores the piano composer AzerDadashovSonatinas. The analysis forms ladointonatsionnyh features and difficulties performing thisSonatinas.Foundation extensions, including a wide range of polylad the principle of the bill. Weber is being compared with the principle of variation (3rd part). Among serial dodecafonic looked sound.
**Keywords**: Sonatina, composer, piano, performer, analysis.

## GİRİŞ

Bəstəkar Azər Dadaşovun I saylı fortepiano sonatinası 1967-ci ildə yazılmışdır. Sonatina Allegro tempində, 4/4 öıçüdə başlayır. Bəstəkar bu sonatinada ənənəvi yazı prinsipini pozaraq, XX əsr bəstəkarlıq yazı texnikasından istifadə etmişdir. Belə ki, bu cəhət bəstəkarın sonatinasının I hissəsində daha qabarıq şəkildə özünü büruzə verir.

A.Dadaşovun I saylı sonatinasında mürəkkəb 3 hissəli forma yeni çalarlar ilə təqdim olunur. Ənənəvi yazı prinsiplərinə riayyət edilməklə yanaşı, bəstəkar bu sonatada yarı seriyal texniki musiqi yazma metodundan istifadə etmişdir. Belə ki, sonatada dodekafonik səssırasından istifadəyə rast gəlinir. Bu hissədə sağ əldə səs ardıcıllaşmaları səs sistemində 12 tonlu səssırasının təkrarlanmadan ardıcıllaşması və seriyalanması əsas cəhət kimi özünü büruzə verir. Bəstəkar burada enharmonizmə də üstünlük verir.

Lakin sağ əldə seriya texnikası yazı sistemində sıralanma prinsipi aydın şəkildə diqqəti cəlb edir. Bu təkrarlanma sonradan yüksək və aşağı registrlərdən keçərək seriyalanmış notların təkrarlanması ilə üzə çıxır.




**Nota 1:Azər Dadaşov I saylı fortepiano sonatinası. Bakı, 1967, 12 tonlu səs sırası.**

Bəstəkar I hissədə $A+A_1+B+A_2+B_2$ quruluşlu kuplet formadan istifadə etmişdir. Əsərin fakturasında biz horizontal dodekafonik yazı üslubuna rast gəlinir. Lakin buradakı horizontallıq hər iki əlin partiyası ilə təqdim olunur. Hər iki səssırası müxtəlif cəhətlərə malik olub, sağ əlin

partiyasında dodekafonik notların seriyalı şəkildə istifadəsi ilə özünü büruzə verdiyi halda, sol əlin partiyasında klassik yazı üslubuna məxsus tersiyalı səslənmələrə rast gəlinir.

Bəstəkar dodekafonik yazı üslubundanistifadə edərək bu bölümdə atematik yazı üslubuna yer vermişdir. Sağ və sol əllərin birlikdə ifası rast gəlinən təkrarlanan səslər isə seqmentli dodekafoniyanın prinsipləri kimi həyata keçirilmişdir. Burada seqmetli polifoniyanın istifadəsi zamanı isə səssırasında onikitonlu dodekafoniya enharmonik səslər ilə də özünü büruzə verir.

Xüsusən burada  si-do bemol, do diyez re bemol notlarının enharmonik istifadəsi qeyd etdiklərimizə bariz nümunədir. Dodekafonik yazı prinsipini öz seriyalaşmasını A1 bölümündə oktava yuxarı təkrarlamaqla əks etdirir. Lakin burada sual cümləsi xarakterini verən 1-ci bölüm 4 xanə, cavab cümlə xarakterini verən melodik bölüm isə 8 xanə təşkil edir.

Sol əldə təkrarlanan səslənmələr ilk baxışdan müasir yazı texnikası prinsipini özündə daşımasını aydın şəlikdə üzə çıxır. Burada əsasən sekunda və kvarta prinsipinə əsaslanan üç xord birləşmələr, bəzən isə səslər arasında üç tonun başverməsi bəstəkarın invensiya tipli faktura yaratması xüsusiyyəti əks olunur. A bölümü ilə A1 bölümü arasında 12/8 ölçüdə bağlayıcı partiya səslənir və burada  minimalizm elemetlərinə rast gəlinir. Lakin 2/4 ölçüdə əvvəl bütöv tonlu, sonra isə orta bütöv tonlu səslənmələrə rast gəlinir.




**Nota 2:Azər Dadaşov I saylı fortepiano sonatinası. Bakı, 1967, A1 bölüm.**

A1 bölümü bir oktava yuxarı təkrar edilir. Bundan  sonra B bölümünə keçid baş verir. Burada 4/4 ölçüdə birləşdirilmiş dodekafoniyadan istifadə edilir. Sağ əldə üfüqi dodekafoniya özünü nə qədər sərbəst göstərsə də, sol əldə obertonlu səslənmə prinsipinə əsaslanan şaquli polifoniyanın əmələ gəlməsi, eyni zamanda polifonik səslənmə prinsipini meydana gətirir. Bu cəhəti ostenatlı poliritmik xüsusiyyətlər əks etdirir. Xətti və üfüqi harmonik prinsiplərin özünü göstərməsi isə böyük sekunda intervalına əsaslanan akordların verilməsi ilə üzə çıxır. Tez-tez pedal dəyişmələri iki xanə arasında səkkizlik notlara əsaslanan leqato artikulyasiyanın verilməsi mühüm əhəmiyyət kəsb edir.



**Nota 3:Azər Dadaşov I saylı fortepiano sonatinası. Bakı, 1967, B bölüm.**

Xanələr arasında ostenatolu, leqatolu notlar, eyni zamanda bütöv tonlu tetraxordun geniş istifadə edilməsi, sekundaların isə ardıcıl tətbiqi öz əhəmiyyəti ilə seçilir. Həmçinin ostenatolu ritmik pedallardan istifadə edilir. Burada səs ardıcıllaşmaları, eyni zamanda interpolyativ və rotarik səslənmə prinsiplərini meydana gətirir. Böyük sekundaların tətbiqi, eyni zamanda harmonik akkord birləşmələri üfüqi və şaquli dodekafoniyanın üzə çıxmasına şərait yaradır. Burada hissənin kulminasiyasına doğru hərəkət özünü büruzə verir.

Sonatanın II hissəsi Andante tempində, 3/4 ölçüdə başlayır. Burada bəstəkar əsasən sıçrayışlı notlar əsasında yaratdığı səslənmə tembrini interval akkordlu modellər ilə müşayiətli fonda təqdim etmişdir. Burada şaquli və üfüqi dodekafoniyadan bəstəkar qarışıq şəkildə istifadə edir və bu baxımdan da əsərin fakturasında bu cəhət birləşdirilmiş şəkildə ozünü büruzə verir.

Bu hissədə bəstəkar əsasən leqatur notasiya sistemindən, artikulyasiyalı intensivlikdən geniş istifadə edir. Notların seriallaşması nəticəsində registr dəyişmələrinin baş verməsi motivləşmə prinsipinə yaxın olan səs ardıcıllaşmalarının eyniliklə eyni registrdə keçməsi və registr dəyişmələrinin septima intervalı aralığında özünü göstərməsi bəstəkarın bir növ yeni tapıntisi kimi dəizah oluna bilər.




**Nota 4:Azər Dadaşov I saylı fortepiano sonatinası. Bakı, 1967, II bölüm.**

Sontanın III hissəsi Presto tempində, 4/4 ölçüdə başlayır. Bu hissə A+B+$A_1$+C+$A_2$ quruluşda rondo quruluşuna yaxın şəkildə öz əksini tapmışdır. Bəstəkar bu hissədə səs

ardıcıllaşmalarını sekunda-kvinta intervalı həcmində istifadə etmişdir. Burada istifadə üsulları əsərin III hissəsinin A bölümündə onaltılıq notların üstünlük təşkil etməsi ilə əlaqələnir. Burada biakkordik səslərdən istifadə edilərək ümumi səs ardıcıllaşmalarını əks etdirmişdir. Bu cəhət serial texnikada struktrualizmin elementi kimi özünü büruzə verir. Qeyd olunan cəhətlər Vebernin variasiya prinsiplərinə uyğundur. Struktrualizmin səkkizlik notlar üzərində istifadəsi zamanı biz həm də yarı strukturlaşmaya da rast gəlirik.




**Nota 5:Azər Dadaşov I saylı fortepiano sonatinası. Bakı, 1967, III hisse A bölüm.**

Azər Dadaşovun 2 saylı sonatinası 1983-cü ildə yazılmışdır. Bu sonatina sadə 2 hissəli formada, a+b+$a_1$+$b_1$ quruluşda özünü büruzə verir. Əsər Allegretto tempində, 2/4 ölçüdə başlayır. Bəstəkar bu sonatinada da seriya yazı texnikasından istifadə etmişdir. Burada dodekafonik prinsiplər əsasında seriyalanmış notlar bəstəkar tərəfindən lad daxilində istifadə edilmişdir. Əsər şur intonasiyalarına əsaslanır.Sonatinanın a bölümü şur intonasiyasına əsaslanır.




**Nota 6:Azər Dadaşov 2 saylı sonatina. Bakı, 1983, əsas bölüm.**

Hissənin b bölümündə sağ əlin ostenatolu səslənmələri özünü büruzə verir. Ostenatolu səs fa diyez şurun mayə pərdəsi ilə əlaqədardır. Lakin tədricən həmin səsə sağ əlin yarım notlara ilə verilən akkordlu ifası daxil olur. Burada sarənc və şikəsteyi-fars pərdələrinə uyğunluq özünü büruzə verir. Qeyd olunan hissədə sual və cavab cümlələri genişlənmiş şəkildədir.




**Nota 7:Azər Dadaşov 2 saylı sonatina. Bakı, 1983, b bölümü.**

Bundan sonra a tempoda $a_1$ bölümü səslənir. Burada $b_1$ bölümü b bölümü ilə eyni struktura malikdir. Lakin buradakı səslənmə şur-şahnaz pərdəsinə əsaslanır. Burada ostenatolu səslənmə üzərinə sol əlin yarım notlar ilə verilən melodik xətti əlavə edilir. Maraqlı hallardan biri odur ki, əsərin sonu hicaz intonasiyasına əsaslanaraq, fa diyez şur məqamının hicaz pərdəsində tamamlanır.

Sonatinanın II hissəsi Andante con tristezza tempində 4/4 ölçüdə başlayır. Bu hissə sadə 3 hissəli formada, a+b+$a_1$ quruluşdadır. Burada maraqlı cəhətlərdən biri də odur ki, bəstəkar seriya texnikasından istifadə etmişdir. Lakin buradakı seriyalaşma şüştər, segah və cahargah intonasiyalarının qarışıq istifadəsi zəmnində öz əksini tapır.

Bu seriallaşmanın dodekafonik səssırasına nəzər salsaq, maraqlı mənzərənin şahidi olarıq. Bəstəkar a hissədə sanki seriallaşma təbəqələrini birləşdirilmiş dodekafoniya əsasında təqdim etməyə çalışır. Lakin burada hər bir fraza adlarının sadaladığımız muğam intonasiyalarına əsaslandığından 1-ci fraza şüştər, 2-ci fraza segah intonasiyalarına aid edilərək sual cümləsi xarakterində təqdim edilir. Burada şüştər intonasiyası mi şüştər, segah intonasiyası isə do diyez segah məqamının səssırasına uyğun olur.




**Nota 8:Azər Dadaşov 2 saylı sonatina. Bakı, 1983, II hissə a bölümü.**

Sonatinanın III hissəsi Allegro scherzando tempində, 4/4 ölçüdə başlayır. Əsərin giriş xanələrində ritmik şəkillərin səkkizlik notlar və pauzalı verilməsi, sağ və sol əlin ümumi ritmik prinsipə tabe edilməsi strukturalizm prinsipindən xəbər verir. Lakin sol əldə təkrarlanmış notların özünü göstərməsi dodekafoniyaya məxsus II pillə mövzusunun istifadəsi cəhətlərini meydana gətirir. Sol əldə təkrarlanan notların rotarik prinsipə tabe edilməsi həm də tektonik səs dairələrinin meydana gəlməsinə səbəb olmuşdur. Bu tektonik səs dairələri e-d-g səsləri arasında ellipsis səslənmələri yaradır ki, bu xüsusiyyətlərə də ellipsis körpüsü kimi baxmaq mümkündür.

Bəstəkar bu hissədə 12 tonlu səssistemindən yaranan səs birləşmələrini yuxarı və aşağı registrdə səlis şəkildə birləşdirə bilmişdir. Bu səslərin hər birinin müstəqil şəkildə hərəkət etməsinə baxmayaraq burada 12 tonlu səssistemi hər iki əldə birləşib ansambl təşkil edərək seqmentli dodekafoniyanın yaranmasına səbəb olur.

Sonatinanın bu hissəsi mürəkkəb 3 hissəli formadadır. Bəstəkar burada ümumi faktura quruluşunu a+b+c+ $b_1$+$a_1$ şəklində təqdim etmişdir. a bölümündə giriş xanələr özünü büruzə verir. Sonra isə sual cümləsi səslənir. Burada bəstəkar dodekafoniyanı seqmentli şəkildə istifadə edir. Bu zaman sağ əldə səkkizlik notların sinkopalı, sol əldə isə səkkizlik notların 4/4 ölçüyə uyğun şəkildə istifadəsi ümumi ansambl prinsipinə xidmət edir. Sağ əlin ifası zamanı yarım ton, ton və siçrayışın olması ifa texnikasını zənginləşdirən amillərdəndir. Sol əldə isə əsasən kvinta, tersiya, sekunda intervallarına əsaslanan melodik xətt özünü büruzə verir. Bu hissədəki səslənmələr həm də şikəsteyi-fars intonasiyasına yaxınlıq təşkil edir.




**Nota 9:Azər Dadaşov 2 saylı sonatina. Bakı, 1983, III hissə**

Təqdim olunan bölümdən sonra təkrarlanan repriza güzgülü repriza (b1+a1) eşidilir. Əsərin sonunda puantalizm cərəyanına məxsus elementlərə rast gəlinir.




**Nota 10:Azər Dadaşov 2 saylı sonatina. Bakı, 1983, III hissə, repriz bölümü.**

A.Dadaşovun III saylı sonatinası 1991-ci ildə bəstələnmişdir. Sonatina Allegretto festifo tempində, 2/4 ölçüdədir. Əsər rondo formasında, $a+a_1+b+a_2+c+a_3$ quruluşundadır. Burada refren əvvəldə verilərək 2 dəfə təkrar edilir. Həmçinin bu əsərdə ikisəsli ifa tərzi ilə bərabər, həm də homofon-harmonik və polifonik elementlərə də rast gəlinir. Əsər rast intonasiyası üzərində olub, re rast məqamının səssırasına uyğunluq təşkil edir. Burada re rasta məxsus üşşaq, şikəsteyi-fars pərdələrinə istinad olunur.

Lakin, burada b bölümü perioodunda bəstəkar tərəfindən genişlənmiş perioddan istifadə edilmişdir. Bu cəhət bəstəkarın öz fərdi təfəkkürünün məcmusu kimi diqqət cəlb edir.Burada sual cümləsindən fərqli olaraq, cavab cümlə 2 dəfə varianrlı şəkildə təkrar olunur. İinci dəfə təkrar olunan cümlədə keçid səslərinə rast gəlinir ki, bu da yenidən a bölümü refreninin təkrarı ilə bağlı olur. Əsərin fakturasında rast gəlinən lya diyez səsi isə re rastın səssırasında özünə yer alan si bemol alterasiya səsi ilə enharmoniklik təşkil edir.




**Nota 11:Azər Dadaşov 3 saylı sonatina. Bakı, 1991. Əsas bölüm.**

Sonatinanın II hissəsində bəstəkar Andantino tempindən 3/4, (6/8 ) ölçüdən istifadə emişdir. Bu hissədə sağ və sol əl ifa texnikası ümumiləşmiş şəkildə öz təcəsümünü tapmışdır.

Əsasən p, mp və dolce-də verilən nüans dəyişmələri kiçik həcmli bu prelüdiya tipli hissəyə xüsusi kolorit gətirir. Əsərin ümumi quruluşu a+b şəklində sadə 2 hissəli kuplet variant formaya əsaslanır. Burada a bölümündə əsasən genişləmnmiş period öz əksini tapır. Lakin, bəstəkar bu hissədə tonal genişlənməsinə üstünlük verərəık, poliladlılıq faktura prinsipinə geniş yer vermışdir. Süstər və segah intonasiyalarının əsaslıandığı a bölümün sağ əldə səslənən intonasiyalar si süstər, sol əldə səslənən intonasiyalar isə fa diyez segah məqamlarının səssıraları ilə uyğun olur. bu cəhət sual cümləsinin 1 və 2-ci fiazasında öz əksi tapır. Cümlənin 1-ci frazasında si süstərin mayə, 2-ci fiazasında isə fa diyez segahın mayə pərdələrinə istinad ertmə aydın özünü göstərir.




**Nota 12:Azər Dadaşov 3 saylı sonatina. Bakı, 1991. II hissə**

Sual cümlədə sağ əldə verilən melodiya sol əlin tərarlanan və sekvensiya şəklində yerinə yetirilən müşayiətin bir ansambl ifa tərziuni meydana gətirir. Daha sonra cavab cümlədə isə faktura nisbətən mürəkkəbləşmiş şəkildə bir oktava yuxarı tərar edilərək, homofon harmonik prinsiplərə tabe olur.Burada cümlə si süsrərin tam kadansına uyğun şəkildə tamamlanır.

Əsərin sadə III hissəsi quruluşda a+a$_1$+ a$_2$+b+a$_3$+ a$_4$ şəklində təqdim olunur. Bu hissə Allegro scherzando tempində 4/4 ölçüdə başlayır. Sağ və sol əldə verilən paralel səslənmələr dissonas səslə üzərində qurulmuşdur. Bu cəhət əsərin yarıserial şəkildə qurulkmasından xəbər verir. lakin burada da rast və segah intonasiyalartından istifadə olunmuşdur. Xrommatik səslərin verilməsi ilə re rast və fa diyaz segah məqamlarının səssıralarına oxşarlıq özünü biruzə verir.




**Nota 13:Azər Dadaşov 3 saylı sonatina. Bakı, 1991. III hissə**

**SONUÇ**

Azər Dadaşovun yaradıcılıgına nəzər salsaq görərik ki, o milli üslubla müasir yazı texnikasını vəhdət şəklində öz yaradıcılıgında chox gözəl əks etdirmişdir. Bu əsər lad-intonasiya ,faktura və həm forma quruluşu baxımından mühüm əhəmiyyəti ilə seçilir. Əsərdə göstərilən forma və məzmun,həm psixoloji,həm estetik cəhətdən digər Azərbaycan bəstəkarlarının yaradıcılıq yolu üçün təkanverici bir qüvvədir.

**KAYNAKLAR**

1. Сеидов Т. Азербайджанская фортепианная культура XX века. Баку: Азернешр, 2006, 272 с.
2. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. 1985, 145 s.
3. Асафев Б. В. Музыкальная форма как процесс. Музыка 1971.
4. Əliyeva F.Ş. Azərbaycan musiqisində üslub axtarışları. Bakı,1996.